

**Ramiz Rövşən**

**Azərbaycan ədəbiyyatının bu gün üçün ən nurlu söz sahibi olan və artıq klassikləşmiş şairi Ramiz Rövşəndi! Oxucu qəlbinə ürəyinin işığı, ruhunun diqtəsiylə yol salmış Ramiz Rövşən özünəməxsus söz dünyasıyla böyük söz məkanını bir az da düşündürücü, bir az da yaşamalı və sevməli edibdi. Yəni Ramiz Rövşən Allahın dərgahından süzülüb gələn misra yükünü söz, şeir çələnginə çevirib yenidən Tanrının hüzuruna qaldırıbdı. Ona görə də istər ilan balasından yazsın, istər başkəsik kötükdən, istər qala paltarlı qadından, istər daş saxlamayan göy üzündən, istər biz olmayan yerlərdən... Bir sözlə, içimizdən, özümüzdən, günümüzdən, dünənimizdən, sabahımızdan, bir-birindən gözəl şeirlər bizə bəxş etsin... Bunların hamısı təkcə gözəl deyil, mükəmməl deyil, həm də düşündürücüdü, həm də insanın ürəyini və ağlını bir nöqtədə birləşdirəndi!**

**Mən Ramiz Rövşən dünyasıyla ilk təmasımdan bu günə qədər sözün necə diri olduğunu, necə yaşadığını müşahidə etmişəm. Onun dünyasında sürünmək yoxdu. Cırmaqlamaq hiss olunmur. Onun söz dünyasında SÖZ qəddini düz saxlayıb və öz yoluyla ağır taxtalı kişilər kimi gedir. Arxasınca da bizi aparır. Və mən görürəm ki, həmin o sanballı SÖZ 70 yaşın əlini bir müdrik görkəmlə sıxır, bir arxayınlıqla o 70 yaşı başdan-ayağa süzür. Məncə, dünyada bundan gözəl heç nə ola bilməz! Özün də, sözün də sevilənsən, özün də, sözün də 70-in zirvəsində bir könül rahatlığı duyasan və hər tərəfdən də üstünə oxucu sevgisi axışa!..**

**Bəli, Ramiz müəllim, ünvanınıza tələsən o təbriklərin, o sevgilərin içərisində mənim də, "Ədalət" qəzetinin əməkdaşlarının da istəkləri ifadə olunub. Elə həmin o böyük istək və sevgiylə sizi təbrik edir, öz şeirlərinizi də sizi sevən oxuculara yubiley hədiyyəsi kimi təqdim edirik. Sağ olun ki, varsınız! Sağ olun ki, ədəbiyyatımız üçün, oxucularınız üçün bu böyük SÖZ dünyasında öz dünyanızı yaratdınız! 70 yaşınız mübarək olsun!**

**Əbülfət MƏDƏTOĞLU**

### *Dünya qəfil işıqlansa*

Qəfil gün doğsa bir gecə,
Dünya düm ağ işıqlansa;
Şəhər-şəhər, küçə-küçə,
Otaq-otaq işıqlansa,
Görərik kimlərin əli
kimlərin cibindən çıxır.
Kimlər əyilə-əyilə
kimlərin evindən çıxır.

Qəfil gün doğsa bir gecə,
Min-min gizli günah görsək,
Üstünü örtə bilməsə,
Bu dünyanı çılpaq görsək,
Başımıza hava gələr,
ağlımız çaşar bəlkə də.
Hamı birdən baş götürüb
dünyadan qaçar bəlkə də.

Bu dünyada bəs kim qalar,
Kim böyüdər, uşaqları?!.
...Nə yaxşı ki, bu dünyamız
Yavaş-yavaş işıqlanır...

### *İçindən yıxılır adam*

Təkcə gücsüzlüyündən
yıxılmır, atam balası,
Arabir gücündən yıxılır adam.
Başını dik tutub gəzdiyi yerdə
içindən yıxılır adam.
İllər boyu neçə dərdə
dözüb dayanır,
Qəfil sevincindən yıxılır adam.
Dünya qaçır ayağının altından -
yıxılmır,
Bu dünyanın ən dəlisov atından
yıxılmır,
Amma bir kəpənəyin qanadından,
bir otun ucundan yıxılır adam.
Gülmə hər yıxılana,
atam balası, gülmə, -
Elə bilmə
bu dünyada təkcə gücsüzlüyündən
ya da ki, acından yıxılır adam

### *Bağışla*

Bir ötən sevgini unuda bilsəm,
Könlümü sevginlə ovuda bilsəm,
Bir axşam yanına, qayıda bilsəm
Bağışla, bağışla, məni bağışla

### *Dərd*

Dərd dərdi əridir, udur,
Dərd dərdin dibinə çökür
Dərd dərdin əlindən tutur,
Dərd dərdin ipini çəkir.

Nə uzundur dərdin ipi
Dolanır dörd bir tərəfi.
Dünyanın dərdli tərəfi
Dərdsiz tərəfini çəkir.

Dünyadan bezmir yenə də,
Şükür deyib bu günə də,
Adam lap öz dərdini də
Sevinə-sevinə çəkir.

### *Bu ağac*

Bu ağac öləcək,
Üzündən gözündən tökülür ölüm.
Bu ağac öləcək, bu gün ya sabah.

Bu ağaca qonan o quş öləcək,
Üzündən gözündən tökülür ölüm.
O quş da öləcək, bu gün ya sabah.

O quşa dən səpən o qız öləcək,
Üzündən gözündən tökülür ölüm.
O qız da öləcək, bu gün ya sabah.

### *Analar aldatdı bizi*

Şirin-şirin yuxudaydıq,
Bir zalım oyatdı bizi.
Anaların gucağından
Bu dünyaya atdı bizi.

Düşdük yolların ağına,
Baxtımızın sorağına,
Qatdı bizi qabağına,
Əlində oynatdı bizi.

Biz ki yol nədi bilməzdik,
Biz ki öl nədi bilməzdik,
Bilsək dünyaya gəlməzdik,
Analar aldatdı bizi

### *Bu güzgüyə bir vaxt qoşa baxardıq*

Bu güzgüyə bir vaxt qoşa baxardıq,-
bu güzgüdə yerin indi boş qalıb.
Bəlkə səndən bu güzgünün canında
dodaq qalıb, kirpik qalıb, qaş qalıb?
Göz yaşların canındadı, bəlkə də
damla-damla əriyəcək bu güzgü.
Bir gün sənin ayağınla dünyada
ayaq açıb yeriyəcək bu güzgü.
Bəlkə, səni axtaracaq, gəzəcək
milyon-milyon adamların içində.
Görən kimi tanıyacaq üzünü
ən qaranlıq axşamların içində.
Qaçacaqsan bu güzgünün əlindən,
Dönəcəksən o döngəyə, bu tinə.
Adamları, maşınları, evləri
Atacaqsan bu güzgünün cənginə.

### *Gedək biz olmayan yerə*

Gəl əl-ələ tutub gedək
Gedək biz olmayan yerə.
Hər dərdi unudub gedək,
Dərdimiz olmayan yerə.
Burda qoyaq özümüzü,
Bu qırışan üzümüzü
Bu köhnəlmiş sözümüzü,
Gedək söz olmayan yerə.
Bir kimsə tutmasın xəbər,
Gəl çıxıb gedək birtəhər.
Bu ev, bu küçə, bu şəhər,
Bu dəniz olmayan yerə.
...Atam oğlu, az çapala
Sən deyən çətin tapıla.
Bu Ramizi kim aparar,
Bu Ramiz olmayan yerə?!

### *Ölmək*

Bulud kimi ölmək
bir yaz yağışında.
Ümid kimi ölmək,
bir qız baxışında.
Bir yel qanadında
yarpaq kimi ölmək
Bir qəbir altında,
torpaq kimi ölmək.
Bir gül kimi ölmək,
bir güldan içində.
Bülbül kimi ölmək
bir hicran içində.
Bir səs kimi ölmək
bir kar qulağında.
Bir söz kimi ölmək,
bir lal dodağında.
Gündən günə ölmək,
Dönə-dönə ölmək.
Öldükcə dirilmək,
Sonra yenə ölmək...

### *Qara paltarli qadin*

Kişilər bir olmur atam balası
Qorxağı var, igidi var,
Amma hər kişinin öləndən sonra
Qəbri üstdə ağlamağa
Bir qara paltarlı gözəl bir qadına ümidi var

Sən öləndə kim olacaq gözlərini bağlayan?
Qardaşmı olacaq, yadmı olacaq?
Bu dunyada bəlkə sənə ən çox ağlayan,
Ən çox ağlatdığın qadın olacaq?!

Göz yaşları yuduqca baş daşını
Qəbrində qurcalanıb,deyəcəksən: ilahi
İllər boyu ağlatdığım bu qadın
Görən necə saxlayıbdır bu qədər göz yaşını?!

Bircə kərə nə saçını oxşamışam,
Nə gözünü silmişəm.
Gözlərimə batır indi saçlarının hər dəni,
İllər boyu bu qadına mən axı dərd vermişəm
İndi görən niyə çəkir dərdimi?

Bu qadın baş daşımı öpüb sığallamaqdansa,
Yumruğuyla döysə-döysə yaxşıdı.
Qəbrimin üstündə ağlamaqdansa,
Məni söysə yaxşıdı.

Yeri-yeri,qara paltarlı qadın,
Kiri-kiri,qara paltarlı qadın.
Bu qəbir də min qəbirdən biridir.
Baş daşımı bəsdir basdın bağrına,
Bütün mənə ağlayanlar kiridi,
Sən də kiri, qəbrim damır, ağlama...

### *Ayrılıq*

Yene bu şəhərdə üz-üzə gəldik,
Neyləyək, ayrıca şəhərimiz yox.
Bəlkə də, biz xoşbəxt ola bilərdik,
Bəlkədə xoşbətik, xəbərimiz yox.

Aradan nə qədər il keçib görən, -
Tanıya bilmədim,
məni bağışla.
Mən elə bilirdim sənsiz ğlərəm,
Mən sənsiz ölmədim,
məni bağışla!
...Sağımız-solumuz adamla dolu,
Qol-qola kişilər, qadınlar keçir.
Özünden xebersiz
ömründe min yol
Özünü öldüren adamlar keçir.

keçir öz qanına batan adamlar,
Bir də ki, qan hanı?
Qan axı yoxdu...
Hamı günahkardı dünyada,
amma
Dünyada heç kəsin günahı yoxdu

### *Kim deyir yuxuda ölmək asandı*

Deyirlər, yuxuda ölmək asandı...
Özün də bilmirsən necə ölürsən
Səhər tezdən eşidirsən əzandı,
Yuxuda kirimişcə ölürsən.

Bir göz qırpımında qurtulur canın,
Ruhun bədənindən uçur quş kimi.
Əlində qalmırsan dərdin, dərmanın,
Dərdə də salmırsan evdə heç kimi.

Kim deyir yuxuda ölmək asandı?..
Kim bilir, necədi yuxuda ölmək?!
Bəlkə də, ən böyük dərddi, əzabdı,
Ən pis işgəncədi yuxuda ölmək.

Bir göz qırpımında yuxuda bəlkə
İllərcə belində daş daşıyırsan.
Nəfəsin kəsilir axırda bəlkə,
Ömrünü daşlara bağışlayırsan.

Yuxuda ölməkdi ən rahat əcəl...
Bu da bir yalançı təsəllidirmi?
Görəsən yuxuda səni boğan əl
Düşmən əlidimi, dost əlidimi?!

Nədi bircə anda ömrə son qoyan?
Beynə axıb sızan bir damla qandı.
Kimdi qəbrin üstə ən bərk ağlayan?
Bəlkə də, yuxuda səni boğandı.

Gecəqorxu çpkər yuxumuza da;
Tərpənər kiminsə qara kölgəsi.
Bəlkə hasar çəkək yuxumuza da,
Heç kəs yuxumuza girə bilməsin.

Bəlkə heç yatmayaq - hər yatanın da
Əgər oyanmamaq qorxusu varsa.
Bəlkə heç yatmayaq - ömrün sonunda
Onsuz da, bir əcəl yuxusu varsa.

Amma yuxun gəlir - görürəm elə;
Daha yavaş - yavaş yumulur gözün,
Yat ... sabah oyanmaq ümidi ilə...
Yuxun şirin olsun - uyu, əzizim...